AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | *Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı* |
| Qəbul edildiyi tarix | *25.07.2012* |
| Qeydiyyat nömrəsi | *20/3* |
| Adı | *Azərbaycan Respublikası Mərkəzi Bankının "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın təsdiq edilməsi barədə* |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *07.08.2012* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *090.060.080* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *23201207250203* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *06.08.2012* |

Bank sektorunda maliyyə sabitliyinin və kapital mövqeyinin gücləndirilməsi və kapitalın keyfiyyətinin artırılması, habelə bank nəzarəti tələblərinin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci və 34-cü maddələrinə, habelə "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 22.0.17-ci maddəsinə əsasən

**Q Ə R A R A   A L I R:**

1. "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları" təsdiq edilsin (əlavə olunur);

2. Hüquq departamentinə (R.Məlikova) tapşırılsın ki, bu Qaydaların 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin;

3. Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 10.12.2003-cü il tarixli qərarı ilə (20 nömrəli protokol) təsdiq edilmiş (29.12.2003-cü il tarixli 3025 nömrəli şəhadətnamə) "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları" və bu Qaydalara 28.06.04-cü il tarixli (17.07.04-cü il tarixli 3067 nömrəli şəhadətnamə), 18.02.08-ci il tarixli (15.03.08-ci il tarixli 3388 nömrəli şəhadətnamə), 17.12.08-ci il tarixli (27.12.08-ci il tarixli 3429 nömrəli şəhadətnamə), 17.06.09-cu il tarixli (02.07.09-cu il tarixli 3456 nömrəli şəhadətnamə), 10.11.09-cu il tarixli (01.12.09-cu il tarixli 3486 nömrəli şəhadətnamə), 16.06.10-cu il tarixli (08.07.10-cu il tarixli 3926 nömrəli şəhadətnamə,) və 06.09.10-cu il tarixli qərarlarla (24.09.10-cu il tarixli 4012 nömrəli şəhadətnamə) təsdiq olunmuş dəyişikliklər ləğv edilsin.

**Sədr** **Elman Rüstəmov**

"Təsdiq edilmişdir"
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar № 20/3
25 iyul 2012-ci il

Sədr

________________________

**Elman Rüstəmov**

**Bank kapitalının və onun adekvatlığının hesablanması**

**Qaydaları**

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" və "Banklar haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qaydalar Azərbaycan Respublikasında fəaliyyət göstərən banklar və xarici bankların yerli filialları (bundan sonra - banklar) üçün bank nəzarəti üzrə Bazel Komitəsinin müəyyən etdiyi prinsiplərə müvafiq surətdə məcmu kapitalın strukturunu, komponentlərini, adekvatlıq və leverec əmsallarını, onların minimum miqdarını və hesablanması qaydalarını müəyyən edir.

## 2. Anlayışlar

2.0. Bu Qaydalarda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.0.1. məcmu kapital (xarici bankların yerli filialları üçün məcmu kapitala bərabər tutulmuş vəsait) - prudensial hesabatlıq məqsədləri üçün istifadə olunan kapital olmaqla, bu Qaydalarda müəyyən edilmiş I dərəcəli (əsas) və II dərəcəli (əlavə) kapitala daxil olan komponentlərin (elementlərin) cəmi və onlardan tutulmaların fərqi;

2.0.2. risk dərəcəsi üzrə ölçülmüş aktivlər - balans aktivlərinin və balansdankənar öhdəliklərin hər birinin risk dərəcəsinə əsasən qiymətləndirilmiş dəyəri (müxtəlif aktivlərlə bağlı meydana çıxan nisbi risk dərəcəsini əks etdirir);

2.0.3. kapitalın adekvatlıq əmsalları - bu Qaydalarda müəyyən edilmiş düsturlarla hesablanan I dərəcəli kapitalın və məcmu kapitalın ayrılıqda risk dərəcəsi üzrə ölçülmüş aktivlərə nisbəti;

2.0.4. kreditə konvertasiya əmsalı - bankın balansdankənar öhdəliklərinin balans aktivlərinin dəyərinə çevrilməsinə imkan verən göstərici;

2.0.5. aktivlər üzrə zərərin ödənilməsi üçün "adi" ehtiyatlar - bankın "standart aktivlər"i üzrə mümkün zərərlərin ödənilməsi üçün yaradılmış ehtiyatlar;

2.0.6. aktivlər üzrə zərərin ödənilməsi üçün "məqsədli" ehtiyatlar - bankın "qeyri-standart aktivlər"i üzrə mümkün zərərlərin ödənilməsi üçün yaradılmış ehtiyatlar;

2.0.7. kapitalın hibrid elementləri - səhmlərin və borc öhdəliklərinin xüsusiyyətlərini özündə birləşdirən müddətli və müddətsiz maliyyə alətləri, o cümlədən kumulyativ və qeyri-kumulyativ müddətsiz imtiyazlı səhmlər, subordinasiya borc öhdəlikləri və ya digər oxşar qiymətli kağızlar;[1]

2.0.8. qeyri-kumulyativ müddətsiz imtiyazlı səhmlər - ~~emissiya şərtlərində geri alınma tarixi olmayan, sahibinin tələbi ilə ödənilməyən, ona gələcəkdə bu hüquqları verməyən,~~ emitentə səhm mülkiyyətçilərinə dividendlərin verilməməsi barədə qərar qəbul etmək, habelə səhm mülkiyyətçilərinə əvvəlki ödənilməmiş dividendlər üzrə ödənişlərin alınmasını tələb etmək hüququ verməyən imtiyazlı səhmlər (emissiya şərtlərində dividendlərin məbləği bazar şəraitindən və bankın maliyyə vəziyyətindən asılı olaraq dəyişilməsi nəzərdə tutulursa, bu səhmlər qeyri-kumulyativ müddətsiz imtiyazlı səhmlərə aid edilmir);[2]

2.0.9. kumulyativ müddətsiz imtiyazlı səhmlər - emissiya şərtlərinə görə mülkiyyətçilərinə ödənilməyən dividendləri daim toplanan və qeyri-kumulyativ müddətsiz imtiyazlı və adi səhmlər üzrə dividendlər ödənilməzdən əvvəl ödənilən, habelə emitentə dividendlərin ödənilməsi vaxtının müəyyən müddətə təxirə salınması hüququ verən imtiyazlı səhmlər;[3]

2.0.10. subordinasiya borc öhdəlikləri - emissiya şərtlərinə görə ödəmə vaxtı çatdıqda ödənilən, bankın aktivlərinin girovu ilə təmin edilməyən, mülkiyyətçisinin tələbi ilə geri alınmayan, son ödəmə müddəti başa çatana kimi bu öhdəlik üzrə ödəmə (faiz və ya əsas borc) baş tutmadığı təqdirdə bankı müflis elan etmək və ya ləğv etmək hüququ verməyən, bank ləğv edilərkən onların ödənilməsi əmanətçilərin və bankın digər kreditorlarının tələbləri tam ödənildikdən sonra icra olunan öhdəliklər;[4]

2.0.11. səhmlərin emissiyasından əmələ gələn əlavə vəsait (bundan sonra - kapital artıqlığı) - adi, yaxud imtiyazlı səhmlərin yerləşdirilməsi zamanı onların satış dəyəri ilə nominal dəyəri arasında yaranmış fərq həcmində əldə edilmiş vəsait;

2.0.12. qeyri-maddi aktivlər - kompüter proqramları, müəllif hüquqları, patent, təbii ehtiyatlardan istifadə hüquqları, lisenziyalar, ticarət və əmtəə nişanları, "nou-hau", "qudvil" və fiziki ifadə forması olmayan, lakin dəyər yaradan digər aktivlər;

2.0.13. leverec əmsalı – "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra - Azərbaycan İpoteka Fondu) tərəfindən yenidən maliyyələşdirilmiş ipoteka kreditlərinin həcminin 50 (əlli) faizi istisna olmaqla, bankın I dərəcəli kapitalının (bu Qaydaların 8.0.1-ci yarımbəndində müəyyən edilmiş tutulmalardan sonra) balans aktivlərinə və balansdankənar öhdəliklərə (bankın hesablarında girov qoyulmuş Azərbaycan Respublikasının milli valyutası ilə, xarici valyuta ilə və ya bank metalları ilə təmin olunmuş hissəsi istisna olmaqla) nisbəti;[5]

2.0.14. balansdankənar öhdəliklər - qarantiyalar, zaminlik və oxşar şərti öhdəliklər, kredit alətləri (kredit xətləri üzrə icra olunmamış hissəsi və oxşar kredit öhdəlikləri) və akkreditivlər.

2.0.15. istehlak krediti – sahibkarlıq və ya peşə fəaliyyəti, habelə daşınmaz əmlakın əldə edilməsi və ya tikintisi ilə bağlı olmayan məqsədlər üçün fiziki şəxslərə verilən kredit.[6]

### 3. Məcmu kapitalın məqsədi və ona dair tələblər

3.1. Bankın məcmu kapitalının əsas məqsədi bankın biznes strategiyasının dəstəklənməsi, daxili və xarici mühitdə baş verən əlverişsiz dəyişikliklər zamanı bankın maliyyə dayanıqlığının təmin edilməsidir. Məcmu kapital bankın ödəmə qabiliyyətinin itirilməsinə gətirib çıxara bilən mümkün zərərlərin azaldılmasına, əmanətçilərin və potensial investorların bank sisteminə etimadının artırılmasına xidmət edir.

3.2. Bankın məcmu kapitalının minimum miqdarı 10 (on) milyon manat, 2015-ci il 1 yanvar tarixindən isə 50 (əlli) milyon manat məbləğində olmalıdır.([7])

3.3. Məcmu kapitala yalnız pul vəsaiti ilə ödənilən maliyyə alətləri daxil edilir.

3.4. "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 21.2-ci və 21.3-cü maddələrinin tələblərinə müvafiq olaraq Mərkəzi Bankın qabaqcadan yazılı icazəsi olmadan heç bir bank səhmlərinin satın alınması və ya səhmlərin nominal dəyərinin azaldılması zamanı onun dəyərinin ödənilməsi yolu ilə məcmu kapitalını azalda bilməz, habelə heç bir xarici bank nizamnamə kapitalına bərabər tutulmuş vəsaitlərinin geri götürülməsi yolu ilə yerli filialının məcmu kapitala bərabər tutulmuş vəsaitini azalda bilməz.

3.5. Bankların nizamnamə kapitalı (xarici bankların yerli filialları üçün nizamnamə kapitalına bərabər tutulmuş vəsait) "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 21.4-cü maddəsinə uyğun olaraq yalnız Azərbaycan Respublikasının milli valyutasında ödənilən pul vəsaiti ilə formalaşdırılır.

3.6. Yeni yaradılan banklar üçün nizamnamə kapitalının (xarici bankların yerli filialları üçün nizamnamə kapitalına bərabər tutulmuş vəsaitin) minimum miqdarı 50 (əlli) milyon manat məbləğində olmalıdır.

### 4. Kapitalın idarə edilməsi

4.1. Müşahidə Şurası və İdarə Heyəti məcmu kapitalın bankın üzləşdiyi bütün risklərin səviyyəsinə uyğun həcmdə, bu Qaydalarda müəyyən edilən minimum miqdardan az olmayaraq, saxlanmasını və onun adekvatlıq normalarına riayət olunmasını təmin etməlidir.

4.2. Kapitalın bankın biznes fəaliyyətinin və risk mühitinin xüsusiyyətlərinə uyğun qiymətləndirilməsi və onun səviyyəsinin müəyyən edilməsi mexanizmləri, o cümlədən bankın məruz qaldığı kredit, bazar, əməliyyat və digər risklərin məcmu kapitalın adekvatlığına potensial təsirinin qiymətləndirilməsi prosedurları, həmçinin kapitalın adekvat səviyyədə saxlanılması strategiyası risklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsi, ölçülməsi, tənzimlənməsi və onlara dair hesabatlığı əks etdirən risklərin idarə edilməsi sistemi ilə əhatə olunmalıdır.

4.3. Risklərin idarə edilməsi üzrə bankın siyasətində onun kapitala olan cari və gələcək tələbatı, gözlənilən kapital xərcləri, kapitalın arzuolunan səviyyəsi və strukturu, kapitalın daxili və xarici mənbələri, həmçinin bankın maliyyə vəziyyətinin pisləşməsi halında əlavə kapital vəsaitlərinin cəlb edilməsi imkanları və müddətləri müəyyən edilir.

4.4. Bank məruz qaldığı risklərin və bu risklərin dəyişməsinin bankın gəlirliyinə, məcmu kapitala və onun adekvatlığına təsirini qiymətləndirir. Qiymətləndirmə bank risklərinin xüsusiyyətləri nəzərə alınmaqla bankın müəyyən etdiyi dövriliklə stress-testləşdirmə və ya risklərin idarə edilməsi sahəsində tətbiq olunan digər metodlardan istifadə edilməklə həyata keçirilir. Qiymətləndirmə ən azı aşağıdakı elementləri əhatə edir:

4.4.1. bütün mühüm risklərin müəyyənləşdirilməsi, ölçülməsi və onların bankın məcmu kapitalının adekvatlığına təsirinin qiymətləndirilməsi;

4.4.2. bankın təyin edilmiş kapital adekvatlığı hədəflərinə nail olmasının qiymətləndirilməsi;

4.4.3. məcmu kapitalın qiymətləndirilməsi sistemində istifadə edilən əsas fərziyyələrin həssaslığının və əsaslandırmaların qiymətləndirilməsi;

4.4.4. risklər əsasında bankın gələcəkdə məcmu kapitala olan tələbatının qiymətləndirilməsi və lazım gəldikdə risklərin idarə edilməsi siyasətində müvafiq düzəlişlərin edilməsi zərurətinin müəyyənləşdirilməsi.

4.5. Məcmu kapitalın adekvatlığını təmin etmək məqsədilə bankda kapitalın və müvafiq risklərin idarə edilməsi prosesləri aşağıdakı istiqamətlər üzrə təhlil edilir:

4.5.1. fəaliyyətinin xüsusiyyəti, həcmi və mürəkkəbliyi nəzərə alınmaqla məcmu kapitalın qiymətləndirilməsi prosesinin səmərəliliyi;

4.5.2. məcmu kapitalın əsas risklərin səviyyəsi ilə düzgün əlaqələndirilməsi;

4.5.3. qiymətləndirmə zamanı istifadə edilən məlumatların dürüstlüyü və dolğunluğu;

4.5.4. qiymətləndirmə zamanı istifadə olunan fərziyyə, model və ssenarilərin əsaslandırılması və etibarlılığı.

4.6. Bu Qaydaların 4.4-cü və 4.5-ci bəndlərinə müvafiq olaraq aparılmış qiymətləndirmənin və təhlilin nəticələri bankda müəyyən edilmiş hesabatlıq qaydasına uyğun olaraq Müşahidə Şurasına təqdim edilir.

4.7. Bankın məcmu kapitalının qiymətləndirilməsi və idarə edilməsi prosesləri ildə bir dəfədən az olmayaraq daxili audit vasitəsilə yoxlanılır və nəticələr barədə Müşahidə Şurasına hesabat verilir.

## 5. Məcmu kapitalın strukturu

Məcmu kapitalın strukturuna birinci (I) dərəcəli və ikinci (II) dərəcəli kapital daxildir. I və II dərəcəli kapitala aid olan komponentlər bu Qaydaların 6-cı və 7-ci hissələrində müəyyən edilir.

## 6. I dərəcəli kapital

6.1. I dərəcəli kapital bankın əsas kapitalı hesab olunur və onun məbləği (aparılan "tutulmalardan" sonra) bankın hesablanmış məcmu kapitalında 50 (əlli) faizdən az olmamalıdır.

6.2. I dərəcəli kapitala aşağıdakı komponentlər daxil edilir:

6.2.1. dövriyyəyə buraxılıb tam ödənilmiş adi səhmlər (bankın geri aldığı adi səhmlər çıxılmaqla);

6.2.2. dövriyyəyə buraxılıb tam ödənilmiş qeyri-kumulyativ müddətsiz imtiyazlı səhmlər;

6.2.3. kapital artıqlığı;

6.2.4. keçmiş illərin bölüşdürülməmiş xalis mənfəəti;

6.2.5. bankın konsolidasiya olunmuş törəmə cəmiyyətlərində azlıq təşkil edən səhmdarların (payçıların) kapitalı.

6.3. Keçmiş illərin bölüşdürülməmiş xalis mənfəətinə aşağıdakılar daxil edilir:

6.3.1. cari ilin zərəri çıxılmaqla bütün əvvəlki illərin yığılıb bölüşdürülməmiş mənfəəti;

6.3.2. kapital ehtiyatları, yəni əvvəlki illərin bölüşdürülməmiş mənfəəti hesabına yaradılmış fondlar.

## 7. II dərəcəli kapital

7.1. II dərəcəli kapital əlavə kapitaldır. Bankın hesablanmış məcmu kapitalında II dərəcəli kapitalın məbləği I dərəcəli kapitalın məbləğindən (aparılan "tutulmalardan"

sonra) çox olmamalıdır. Bundan artıq olan hissə məcmu kapitalın hesablanması zamanı nəzərə alınmır.

7.2. II dərəcəli kapitala aşağıdakı komponentlər daxil edilir:

7.2.1. cari ilin mənfəəti;

7.2.2. ümumi ehtiyatlar (balans aktivlərinin və balansdankənar öhdəliklərin risk dərəcəsi üzrə ölçülmüş məbləğinin (aparılan "tutulmalar"dan sonra) 1,25 faizinədək, lakin "adi" ehtiyatların məbləğindən çox olmayan hissəsi);

7.2.3. qeyri-kumulyativ müddətsiz imtiyazlı səhmlər istisna olmaqla kapitalın hibrid elementləri.[8]

~~7.2.3.1. kumulyativ müddətsiz imtiyazlı səhmlər;~~

7.2.3.2. ~~ən azı 5 (beş) il müddətinə buraxılmış subordinasiya borc öhdəlikləri (ödəniş müddətinin başa çatmasına qalan son 5 (beş) ildə II dərəcəli kapitala daxil edilmək üçün hər il 20 (iyirmi) faiz azaldılması şərti ilə). II dərəcəli kapitalın hesablanmasında nəzərə alınan subordinasiya borc öhdəliklərinin məbləği I dərəcəli kapitalın (aparılan "tutulmalar"dan sonra) 50 (əlli) faizdən çox olmamalıdır.~~ [9]

7.3. Bu Qaydaların 7.2.3-cü yarımbəndində nəzərdə tutulmuş kapitalın hibrid elementləri II dərəcəli bank kapitalına daxil edilməsi üçün onlar ən azı aşağıdakı meyarlara cavab verməlidir:[10]

7.3.1. kreditorların tələbi ilə geri çağırılmasının qeyri-mümkünlüyü;

7.3.2. bankın bu alətlər üzrə faiz ödənişlərinin təxirə salmaq hüququnun olması;

7.3.3. bank ləğv edildikdə bu alətlər üzrə öhdəliklərin ödənilməsinin bütün digər kreditorların tələbləri tam ödənildikdən sonra icra olunması;

7.3.4. bu alətlər üzrə öhdəliklərin bankın öz aktivləri ilə icrasına hər hansı formada təminat verilməməsi;

7.3.5. kapital adekvatlığı göstəricilərinin bu Qaydalarla müəyyən edilmiş minimum səviyyədən aşağı olduğu halda bankın bu alətlər üzrə öhdəliklərinin icrasını təxirə salmaq hüququnun olması;

7.3.6. bankın bu alətlər üzrə öhdəliklərinin əsas məbləğinin icra müddəti ən azı 5 (beş) ildən sonra və ya müddətsiz şərti ilə müəyyən olunmalıdır.[11]

7.4. Kapitalın hibrid elementləri, o cümlədən subordinasiya borc öhdəlikləri II dərəcəli kapitalda ödəniş müddətinin başa çatmasına 5 il qaldıqda qalıq müddətinin birinci ilinin əvvəlindən başlayaraq hər il 20 faiz azaldılmaqla nəzərə alınır.

7.3.7. 7.5. II dərəcəli kapitalın hesablanmasında nəzərə alınan kapitalın hibrid elementlərinin məbləği I dərəcəli kapitalın (aparılan "tutulmalar"dan sonra) 50 (əlli) faizindən çox olmamalıdır.[12]

## 8. Kapitaldan tutulmalar

8.0. Kapitalın adekvatlıq əmsalları və leverec əmsalı hesablanmazdan əvvəl kapitaldan aşağıda göstərilənlər çıxılır ("tutulmalar" aparılır):[13]

8.0.1. I dərəcəli kapitaldan - bütün "qeyri-maddi" aktivlərin xalis dəyəri (amortizasiyası nəzərə alınmaqla) və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ilə müəyyən olunmuş təxirə salınmış vergi aktivlərinin məbləği;[14]

8.0.2. məcmu kapitaldan - bankın investisiyalar üçün yaratdığı "məqsədli" ehtiyatlar çıxılmaqla konsolidasiya olunmamış törəmə cəmiyyətlərinə, habelə digər hüquqi şəxslərin kapitalına vəsait qoyuluşları.

## 9. Aktivlərin risk dərəcəsi üzrə ölçülməsi

9.1. Banklar bütün balans aktivlərini və balansdankənar öhdəliklərini növündən, xüsusiyyətindən, habelə öhdəliyin təminatından asılı olaraq müxtəlif risk dərəcələrinə aid edirlər. Aktivlərin və balansdankənar öhdəliklərin təminatı qismində qiymətli kağızlar çıxış etdikdə risk dərəcələrinin ölçülməsi zamanı qiymətli kağızların bazar dəyəri nəzərə alınır.[15]

9.2. Aktivlər 0 (sıfır), 20 (iyirmi), 50 (əlli), 100 (yüz) ~~və 120 (yüz iyirmi)~~ faizli risk dərəcələrindən (qruplarından) birinə aid edilir.[16]

9.3. Balans aktivlərinin risk dərəcəsi üzrə ölçməsi üçün aktivlərin balans məbləği aşağıda göstərilən müvafiq risk əmsallarına vurulur və nəticələr toplanır.

9.4. Balans aktivləri risk qruplarına aşağıdakı xüsusiyyətlərindən asılı olaraq aid edilir:

9.4.1. 0 (sıfır) faizli (0,0 əmsallı) risk qrupu;

9.4.1.1. bankın kassalarında, xəzinələrində, onun nümayəndəlik, şöbə və filiallarında, mübadilə şöbələrində, bankomatlarda və digər ödəniş terminallarında, habelə yolda olan Azərbaycan Respublikasının milli valyutası, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (bundan sonra - İƏİT) ölkələrinin (Əlavə 1) sərbəst dönərli valyutası və bank metalları;

9.4.1.2. bankın Mərkəzi Bankda və ya onun ərazi idarələrindəki müxbir hesablarında və məcburi ehtiyatlarında olan vəsait;

9.4.1.3. Azərbaycan Respublikası adından bağlanmış müqavilələr üzrə yaranan birbaşa tələblər, dövlət qiymətli kağızları, Mərkəzi Bank tərəfindən buraxılan qiymətli kağızlar və ya Azərbaycan İpoteka Fondunun buraxdığı təmin edilmiş qiymətli kağızlar;[17]

9.4.1.4. İƏİT ölkələrinin hökumətlərinin və ya mərkəzi banklarının buraxdıqları qiymətli kağızlar və onlara qarşı olan birbaşa tələblər;

9.4.1.5. kreditin bankın hesablarında girov qoyulmuş Azərbaycan Respublikasının milli valyutası və ya İƏİT ölkələrinin sərbəst dönərli valyutası, yaxud bank metalları ilə təmin olunmuş hissəsi.

9.4.1.6. beynəlxalq nüfuzlu reytinq agentlikləri (Standard&Poor`s, Fitch Ratings, Moody`s) (bundan sonra - beynəlxalq reytinq agentlikləri) tərəfindən verilmiş "AAA" kredit reytinqinə malik Çoxtərəfli İnkişaf Banklarına[1] qarşı birbaşa tələblər, yaxud tələblərin bu təşkilatlar tərəfindən qeyd-şərtsiz öhdəliyi ilə və ya həmin təşkilatlar tərəfindən buraxılmış qiymətli kağızlarla təmin olunmuş hissəsi;[18]

9.4.2. 20 (iyirmi) faizli (0,2 əmsallı) risk qrupu:

9.4.2.1. İƏİT ölkələrində qeydə alınmış depozit və ya digər maliyyə-kredit təşkilatlarına qarşı tələblər, o cümlədən banklararası kreditlər, depozitlər, bu təşkilatlarda olan müxbir hesab qalıqları və onlar tərəfindən qeyd-şərtsiz təmin olunmuş digər aktivlər;

9.4.2.2. tələblərin İƏİT ölkələrinin yerli hakimiyyət, yaxud bələdiyyə orqanları tərəfindən buraxılan qiymətli kağızlarla təmin olunmuş hissəsi (bu tələblərin ödənilməsi mənbəyi kommersiya layihələrindən əldə edilən gəlirlər deyil, ümumi büdcə daxilolmaları hesabına formalaşmalıdır);

9.4.2.3. 0 (sıfır) faizli risk qrupuna aid edilməyən və beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş minimum "BBB" kredit reytinqinə malik Çoxtərəfli İnkişaf Banklarına qarşı birbaşa tələblər, yaxud tələblərin bu təşkilatlar tərəfindən qeyd-şərtsiz öhdəliyi ilə və ya həmin təşkilat tərəfindən buraxılmış qiymətli kağızlarla təmin olunmuş hissəsi [19]

~~9.4.2.4. tələblərin Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, yaxud Asiya İnkişaf Bankı tərəfindən buraxılmış qiymətli kağızların nominal dəyəri ilə deyil, bazar dəyəri ilə təmin olunmuş hissəsi;~~

9.4.2.5. ~~tələblərin dövlət qiymətli kağızlarının, Mərkəzi Bankın buraxdığı qiymətli kağızların, yaxud İƏİT ölkələrinin hökumətləri və ya mərkəzi bankları tərəfindən buraxılmış qiymətli kağızların nominal dəyəri ilə deyil, bazar dəyəri ilə təmin olunmuş hissəsi;~~[20]

9.4.2.6. aktivlərin tam və ya hər hansı bir hissəsi, əgər onlar üçüncü şəxs tərəfindən buraxılmış qiymətli kağızlarla təmin olunmuşsa və bu qiymətli kağızların ödənilməsinə öz növbəsində Azərbaycan Respublikası, Mərkəzi Bank, yaxud İƏİT ölkələrinin hökumətləri və ya mərkəzi bankları tərəfindən qeyd-şərtsiz təminat verilmişsə;

9.4.2.7. üçüncü şəxslərin banka olan borclarının Azərbaycan Respublikası, Mərkəzi Bank, yaxud İƏİT ölkələrinin hökumətləri və ya mərkəzi bankları tərəfindən qeyd-şərtsiz təmin olunmuş hissəsi.

9.4.3. 50 (əlli) faizli (0,5 əmsallı) risk qrupu:

9.4.3.1. tələblərin İƏİT ölkələrinin yerli hakimiyyət, yaxud bələdiyyə orqanları tərəfindən buraxılan qiymətli kağızlarla təmin olunmuş hissəsi (bu tələblərin ödənilməsi mənbəyi kommersiya layihələri üzrə alınan gəlirlər olur);

9.4.3.2. Azərbaycan İpoteka Fondunun vəsaiti və ya eyni şərtlərlə digər mənbələr hesabına verilmiş ipoteka kreditləri.[21]

9.4.4. 100 (yüz) faizli (1,0 əmsallı) risk qrupu:

9.4.4.1. yuxarıdakı qruplarda göstərilən tələblərdən başqa bütün digər tələblər;

9.4.4.2. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası, yerli hakimiyyət və ya bələdiyyə orqanları tərəfindən buraxılmış qiymətli kağızlarla təmin edilmiş tələblər;

9.4.4.3. bütün əsas vəsaitlər, o cümlədən bank işində istifadə olunmayan əsas vəsaitlər;

9.4.4.4. yığılma prosesində olan ödəniş alətləri (bank tərəfindən icra edilmiş, lakin pul əvəzi banka daxil olmamış ödəniş alətləri);

9.4.4.5. İƏİT-ə daxil olmayan ölkələrin depozit və ya digər maliyyə-kredit təşkilatlarına qarşı tələblər, o cümlədən banklararası kreditlər, depozitlər, bu təşkilatlarda olan müxbir hesab qalıqları və nağd valyuta;

9.4.4.6. yuxarıda göstərilən risk qruplarına aid olmayan digər aktivlər (~~bu Qaydaların 9.4.5-ci yarımbəndində nəzərdə tutulmuş aktivlər istisna olmaqla~~).[22]

~~9.4.5. 120 (yüz iyirmi) faizli (1,2 əmsallı) risk qrupuna təminatı olmayan istehlak kreditləri aid edilir.~~[23]

9.5. Balansdankənar öhdəliklərin (aktivlərin) risk dərəcəsi üzrə ölçülməsi üçün balansdankənar öhdəliklərin icra məbləği kreditə konvertasiya əmsalına vurulur, alınan hasil balansdankənar öhdəliyin balans aktivinin ekvivalenti hesab edilir və həmin məbləğ bu Qaydaların 9.4-cü bəndi ilə balans aktivləri üçün müəyyən olunmuş müvafiq risk qrupuna aid edilir.

9.6. Bu hissədə göstərilən balansdankənar öhdəliklər aşağıda müəyyən olunmuş əmsallar üzrə kreditə konvertasiya edilir:

9.6.1. müqavilə əsasında banka birtərəfli qaydada öhdəliyi tam və ya qismən yerinə yetirməmək hüququ verən və müddəti bir ilədək olan balansdankənar öhdəliklər – 20 (iyirmi) faizlə (kreditə konvertasiya əmsalı – 0,2);

9.6.2. alınacaq mallarla təmin olunmuş müddəti bir ilədək olan bank tərəfindən açılan akkreditivlər – 50 (əlli) faizlə (kreditə konvertasiya əmsalı – 0,5);

9.6.3. müqavilə əsasında banka birtərəfli qaydada öhdəliyi tam və ya qismən yerinə yetirməmək hüququ verən və müddəti bir ildən çox olan balansdankənar öhdəliklər – 60 (altmış) faizlə (kreditə konvertasiya əmsalı – 0,6 );

9.6.1.4. 9.6.4. digər balansdankənar öhdəliklər – 100 (yüz) faizlə (kreditə konvertasiya əmsalı – 1,0).[24]

9.7. Valyuta kontraktları (forvard kontraktları) aşağıdakı cədvəldə verilmiş əmsallar üzrə kreditə konvertasiya olunur:

| Müqavilə müddətinə görə bağlanmış forvard kontraktları (kontraktla valyutanın alınması üçün müəyyən olunmuş ilkin müddət) | Kreditə konvertasiya faizi və ya əmsalı |
|---|---|
| a) bir il və ondan az olan müddətə | 2 % və ya 0,02 |
| b) bir ildən iki ilə qədər olan müddətə | 5 % və ya 0,05 |
| c) iki ildən artıq olan müddətə. Üçüncü ildən başlayaraq hər növbəti il üçün -3% (n-illərin sayı) | 5%+3%xn və ya 0,05+0,03xn |

Forvard kontraktının məbləğinin balans aktivinə konvertasiya edilməsi üçün, cədvəldə verilmiş kreditə konvertasiya əmsalı müqavilə məbləğinə vurulur, alınan hasil balansdankənar öhdəliyin balans ekvivalenti hesab edilir və həmin məbləğ bu Qaydaların 9.4-cü bəndi ilə balans aktivləri üçün müəyyən olunmuş müvafiq risk qrupuna aid edilir.

## 10. Risk dərəcəsi üzrə ölçülmüş aktivlərdən tutulmalar

Kapitalın adekvatlıq əmsalları hesablanmazdan əvvəl risk dərəcəsi üzrə ölçülmüş aktivlərdən aktivlər üzrə zərərin ödənilməsi üçün yaradılmış "məqsədli" ehtiyatlar ("tutulmalar") çıxılır.

## 11. Kapitalın adekvatlıq əmsallarına dair tələblər və onların hesablanması

11.1. Bank məcmu kapitalın adekvatlıq əmsalım 10 (on) faizdən və I dərəcəli kapitalın adekvatlıq əmsalını 5 (beş) faizdən az olmayan səviyyədə saxlamalıdır.[25]

11.2. Məcmu kapitalın, risk dərəcəsi üzrə ölçülmüş aktivlərin və kapitalın adekvatlıq əmsallarının hesablanması aşağıdakı düsturlarla aparılır:

11.2.1. Məcmu kapital = I dərəcəli kapital - I dərəcəli kapitaldan "tutulmalar" + II dərəcəli kapital - məcmu kapitaldan "tutulmalar";

11.2.2. Risk dərəcəsi üzrə ölçülmüş aktivlər = risk dərəcəsi üzrə ölçülmüş balans aktivləri + risk dərəcəsi üzrə ölçülmüş balansdankənar öhdəliklər - risk dərəcəsi üzrə ölçülmüş aktivlərdən "tutulmalar";

*11.2.2-1. Banka aidiyyəti olan şəxslərə və banka aidiyyəti olan şəxs adından hərəkət edən şəxslərə (bundan sonra – aidiyyəti şəxslər) verilmiş kreditlər məcmu kapitalın və I dərəcəli kapitalın adekvatlıq əmsallarının hesablanmasında aşağıdakı qaydada nəzərə alınır:* [26]

11.2.2-1.1. 01.06.2015-ci il tarixindən sonra aidiyyəti şəxslərə yeni verilmiş və ya restrukturizasiya olunmuş kreditlərin 100%-i;

11.2.2-1.2. 01.01.2017-ci il tarixindən 01.01.2018-ci il tarixinədək – 01.06.2015-cı il tarixinədək aidiyyəti şəxslərə verilmiş kreditlərin 20%-i;

11.2.2-1.3. 01.01.2018-ci il tarixindən 01.01.2019-cu il tarixinədək – 01.06.2015-cı il tarixinədək aidiyyəti şəxslərə verilmiş kreditlərin 40%-i;

11.2.2-1.4. 01.01.2019-cu il tarixindən 01.01.2020-ci il tarixinədək – 01.06.2015-cı il tarixinədək aidiyyəti şəxslərə verilmiş kreditlərin 60%-i;

11.2.2-1.5. 01.01.2020-ci il tarixindən 01.01.2021-ci il tarixinədək – 01.06.2015-cı il tarixinədək aidiyyəti şəxslərə verilmiş kreditlərin 80%-i;

11.2.2-1.6. 01.01.2021-ci il tarixindən başlayaraq - aidiyyəti şəxslərə verilmiş kreditlərin 100%-i.[27]

11.2.3. I dərəcəli kapitalın adekvatlıq əmsalı =

$$\frac{\text{I dərəcəli kapital – I dərəcəli kapitaldan "tutulmalar" – aidiyyəti şəxslərə verilmiş kreditlər}}{\text{aidiyyəti şəxslərə verilmiş kreditlər istisna olmaqla risk dərəcəsi üzrə ölçülmüş aktivlər}} \times 100\%$$ [28]

11.2.4. Məcmu kapitalın[29] adekvatlıq əmsalı =

məcmu kapital – aidiyyəti şəxslərə verilmiş kreditlər
------------------------------- X100%
aidiyyəti şəxslərə verilmiş kreditlər istisna olmaqla risk

dərəcəsi *üzrə* ölçülmüş
aktivlər[30]

